DOI: 10.30546/2616-4418.29.2024.80
http://www.ejsr.org

# MİLLİ İQTİSADİYYAT STRUKTURUNUN MODERNLƏŞDİRİLMƏSİ

**Nurlan ABDULLAZADƏ**
*Azərbaycan Dövlət Iqtisad Universiteti, Azərbaycan*

## Giriş

Milli iqtisadiyyatın strukturunun müasirləşdirilməsi zamanı stimullaşdırıcı iqtisadi mexanizmlərin fəal tətbiqi, ilk növbədə real iqtisadiyyatın inkişafı və modelləşdirilməsi üzrə tədbirlər həyata keçirilməlidir. Struktur dəyişikliklərinə görə dövlət orqanlarının məsuliyyəti müəyyən edilməli və müəyyən dövrlər üçün nəzarət mexanizmləri tətbiq edilməlidir. Milli iqtisadiyyatın strukturunun daha optimal və səmərəli şəkildə təkmilləşdirilməsi, müasirləşmə ilə bağlı problemlərin həlli üsullarının müəyyən edilməsi və onların milli iqtisadiyyat mexanizmləri sisteminə uyğunlaşdırılmasının təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Bununla əlaqədar məqsəd, vəzifə və tapşırıqların ən optimal şəkildə müəyyən edilməsi zəruridir. Bu proseslərdə iqtisadi və təşkilati mexanizmlərin səmərəliliyi, büdcə və pul siyasətinə yanaşmalar əsas götürülməlidir. Struktur müasirləşmə prosesində institusional islahatların dərinləşdirilməsi üçün şəraitə xüsusi diqqət yetirilməlidir. Bazar

CC BY NC ND

iqtisadiyyatı şəraitində mülkiyyət hüquqlarının qorunması, sağlam rəqabət mühitinin təmin edilməsi, ölkədə investisiya və innovasiya mühitinin yaradılması, qanunların icrasının təmin edilməsi və nəhayət, iqtisadi sistemin hər bir mexanizmi üçün konkret məqsəd və mexanizmlərin olması vacibdir. Bundan əlavə, strateji məqsədlərin və prioritet məsələlərin həyata keçirilməsi üçün praktiki vasitələrin səmərəliliyinə ciddi diqqət yetirilməlidir. Qlobal kontekstdə iqtisadi sistemin dayanıqlığını və onun antiböhran şəraitində mövcud qlobal təsirlərə qarşı davamlılığını təmin etmək üçün dövlət davamlı və sistemli tədbirlər görməli, strukturun müasirləşdirilməsini həyata keçirməli və maksimum məhsuldar sahələrin formalaşmasına diqqət yetirməlidir. Qlobal kontekstdə struktur dəyişiklikləri qlobal problemlərin həllinə imkan yaradan məsələlər üzərində qurulmalıdır.

İqtisadiyyatın strukturunun müasirləşdirilməsi sadə məsələ deyil və dövlət tərəfindən uzunmüddətli və strateji məqsədləri əks etdirən inkişaf proqramları ilə tarazlaşdırılmalı və əlaqələndirilməlidir. Bundan əlavə, strukturun modernizasiyası iqtisadi sistemin ənənəvi mexanizmlərindən fərqlənməli və məhsuldarlığı ilə diqqəti cəlb etməlidir. Strukturun müasirləşməsi cəmiyyətdə sosial-iqtisadi gərginlik yaratmamalı, əhalinin həssas qruplarının vəziyyətini nəzərə almalı, mövcud problemlərin həlli üçün əlverişli şərait yaratmalı və onun həyata keçirilməsi üçün maliyyə mənbələrini müəyyən etməlidir. Əks halda, struktur siyasətiinin səmərəsiz həyata keçirilməsi iqtisadi fəaliyyətin əsas sahələrinin inkişafını ləngidə və bütövlükdə milli iqtisadiyyatın inkişaf tempinə problemlər yarada bilər. Bu nöqteyi-nəzərdən tədqiq olunan problemin təhlili metodundan müasir şəraitdə, postneft dövrünün xüsusiyyətləri nəzərə alınmaqla, milli iqtisadiyyatın strukturunun müasirləşdirilməsi prosesində, iqtisadiyyatda mövcud mexanizmlərin təkmilləşdirilməsi prosesində istifadə olunur və müxtəlif yanaşmalar kontekstində dayanıqlı inkişafın əsas göstəricilərinin yenidən modelləşdirilməsi imkanları ilə izah olunur.

Müasir şəraitdə milli iqtisadiyyatın strukturunun yenidən qurulması problemlərinin həllinin optimallaşdırılmasında dünya təcrübəsi ilə müqayisədə, Azərbaycanda davamlı və dinamik iqtisadi artıma imkan verən milli iqtisadi inkişafın adekvat modelinin hələ formalaşmadığını görmək olar.

## Mövzunun təhlili

Milli iqtisadiyyatın strukturu kifayət qədər mürəkkəbdir və onu bir neçə il ərzində modernləşdirmək asan deyil. Bu baxımdan uzunmüddətli strateji hədəflər çərçivəsində bütün mümkün fəaliyyət sahələri qiymətləndirilməli və istifadə edilməlidir. Ölkəmiz maliyyə sarsıntılarını, iqtisadi geriləmələri, eniş tendensiyalarını artıq geridə qoyub, çünki ölkənin iqtisadi sistemi antiböhran şərtlərinə qarşı öz zəruri davamlılığını formalaşdıra bilib. Bu nəticələr necə formalaşır? Son dövrlərdə bir çox sahələrdə qeydə alınmış daha inamlı addımlar,

sosial-iqtisadi inkişafda müsbət nəticələr, xüsusilə qeyri-neft sektorunda artımın bərpası, qeyri-neft məhsullarının və ixracın artması kifayət qədər nəzərə çarpır.

Şəkil 1-də milli iqtisadi təhlükəsizliyin əsas göstəricilərindən biri olan Azərbaycanın ÜDM-nin 2015-2021-ci illər üzrə dinamikası göstərilmişdir.




**Şəkil 1.** 2015–2021-ci illərdə Azərbaycan Respublikasında ÜDM dinamikası (milyon manatla)

***Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi***
***http://www.stat.gov.az***

Şəkil 1- ə nəzər yetirdikdə belə nəticəyə gəlmək olar ki, 2015-2021-ci illərdə Azərbaycanda ÜDM-in real həcmi 1,7 dəfə artmışdır. İqtisadiyyatımızda baş vermiş devalvasiya ümumi daxili məhsulun həcmində öz mənfi təsirlərini göstərmişdir. Azərbaycan qlobal iqtisadi və maliyyə böhranının mənfi nəticələrinin yaratdığı çətinliklərdən xilas olmağı bacarsa da, 2019-cu ildə iqtisadi durğunluq dövrü yaşandığı üçün ÜDM həcmində artım aşağı səviyyədə olmuşdur. Bundan əlavə olaraq, 2020-ci ildə baş vermiş koronavirus pandemiyasının təsirləri səbəbindən ÜDM həcmi azalmışdır. Növbəti illərdə isə demək olar ki, pandemiyanın mənfi nəticələri tədricən aradan qaldırılmış, ölkədə iqtisadi artım tempi bərpa edilmiş və yeni artım mənbələrinin yaradılması istiqamətində sistemli işlər aparılmaqdadır.

Oxşar araşdırmalarda, milli iqtisadiyyatın strukturunun müasirləşdirilməsi problemləri haqqında geniş məlumatlar verilir və statistik təhlillər aparılır. Buna baxmayaraq, əsas məsələ milli iqtisadiyyatın davamlı və dayanıqlı inkişafının təmin edilməsi, milli iqtisadi inkişaf modelinin şaxələndirilməsi problemlərinin həlli üçün daha səmərəli tədbirlərin görülməsidir. Əksər hallar iqtisadçılar bu kimi problemlərinin həlli mərhələsindən yayınmağa və daha sonraki dövrlərə ləngitməyə çalışırlar. Lakin qlobal iqtisadi təhlükələr bu prosesləri aydın şəkildə sezir və öz təsirlərini növbəti mərhələlərdə hiss etdirirlər.

Ölkəmizin milli iqtisadiyyatının strukturunun müasirləşdirilməsi problemlərinə gəldikdə, aşağıdakı məqamları qeyd etmək vacibdir:

- *Azərbaycanın neft-qaz sektoruna irimiqyaslı investisiyaların yatırılması prosesinin XXI əsrin ikinci yarısından sonra da davam edəcəyini nəzərə alaraq, bu sahənin emal sektorunun yenidən qurulması və müasir texnologiyalara əsaslanan neft-kimya kompleksinin yaradılması yaxın gələcəkdə öz həllini tapmalıdır. Bu sektorun emal imkanları, əlavə dəyər potensialı haqqında geniş məlumat vermək olar. Bu sahədə kifayət qədər proqram və layihələrin təklif olunduğu deyilir, amma təəssüf ki, konkret işlərin həcmi və miqyası real potensialı əks etdirmir;*

- *Neft-qaz sektorunun emal sənayesi təkcə neft emalı ilə məhdudlaşmamalı və neft emalının uzun illər ərzində eyni səviyyədə qalması diqqətdən kənarda qalmamalıdır. Ona görə də emal sənayesi şəbəkəsinin genişləndirilməsi istiqamətində atılan addımlar qənaətbəxş səviyyədə deyil. Bu istiqamətdə görülən tədbirlərdən qaz emalının təşkili və kənd təsərrüfatı gübrələrinin istehsalı üçün nəhəng zavod tikintisini misal göstərmək olar. Qeyd etmək lazımdır ki, məhsulların böyük qismi ixracyönümlüdür və bu da ölkəyə xarici valyuta axınının daha bir etibarlı mənbəyi olacaqdır. Məsələ sadəcə olaraq bununla kifayətlənmir, neft və qaz xammalından müxtəlif çeşiddə emal məhsulları əldə edilməsi mümkündür. Bu istiqamətdə inkişafın əldə edilməsi üçün emal şəbəkəsinin artırılması mühüm şərtdir. İnkişaf etmiş ölkələrdə bu sahəyə xüsusi diqqət yetrilir. Qeyd edilən qeyri-neft ölkələrinın iqtisadiyyatına nəzər yetirsək görərik ki, həmin ölkələr xam nefti idxal etməklə müxtəlif emal sahələri yaratmağa, bununla da güclü iqtisadi potensial formalaşdırmağa nail olublar. Qeyd etmək lazımdır ki, ölkəmizdə milli iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı, istehsal potensialının formalaşdırılması üçün neft və qaz xammalından yeni məhsulların və yarımfabrikatların əldə edilməsi prosesi hələ də zəif gedir. Bu məsələ də iqtisadiyyatımızda olan imkanlardan yalnız mövcud potensialın ilkin səviyyədə istifadə edilməsini deməyə imkan verir;*

- *Digər mühüm məsələ ölkəmizdə neft-qaz sektorunda sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılmasıdır. Dövlət Neft Şirkətinin inkişafı, dünya səviyyəli transmilli şirkətə çevrilməsi, korporativ idarəetmə sisteminin dünya standartlarına uyğunlaşdırılması, müxtəlif ölkələrdə SOCAR-ın nümayəndəliklərinin yaradılması istiqamətində mühüm addımlar atılır. Lakin ölkənin neft-qaz sektorunda özəl tərəflərin iştirakı və bu istiqamətdə sağlam rəqabət mühitinin yaradılması, özəl şirkət və müəssisələrin təşkili məsələsində hələ də gecikmələr mövcuddur. Məlumdur ki, bu infrastrukturun yaradılması müəyyən vaxt aparacaqdır. Lakin proseslərin intensivləşdirilməsi üçün şəraitin yaradılması, qanunvericilik*

*bazasının formalaşdırılması və bununla bağlı digər məsələlərin həll edilməsi üçün lazımi şərait yaradılmalıdır;*

- *Neft-qaz sektorunda mühüm layihə olan kimya və neft-kimya kompleksinin inkişafının sürətləndirilməsi istiqamətində tədbirlər həyata keçirilir. Qeyd etmək lazımdır ki, yaxın zaman ərzində bununla bağlı regional zavodun və yeni texnoloji qurğuların istifadəyə veriləcəyi gözlənilir. Xam neft emalı prosesində böyük emal kompleksi olan müxtəlif polietilen məmulatlarının istehsalı zavodu artıq istifadəyə verilmişdir. Polimer məmulatları ixracyönümlü olmaqla yanaşı, həm də əlavə iqtisadi dəyər yaratmaq qabiliyyətinə malikdir. Bu məhsulların emalını təşkil etməklə ölkənin müxtəlif bölgələrində istehsal sahələri və müəssisələrin yaradılması mümkündür. Bu da, öz növbəsində, yeni iş yerlərinin yaradılması, işsizliyin azaldılması, milli istehsal potensialının artırılması, regionlarda iqtisadi fəallığın yüksəldilməsi, istehsal infrastrukturunun inkişafı, kadr potensialından düzgün istifadənin təşkili və gəlirlərin artırılmasına gətirib çıxaracaqdır;*

- *Qeyri-neft sektorunun inkişafının modelləşdirilməsi və iqtisadiyyatda əlavə dəyər yaratmaq potensialı onların milli iqtisadiyyatın strukturunda xüsusi çəkisinin əhəmiyyətli dərəcədə artmasına və nəticədə ölkənin neftdən asılılığının əhəmiyyətli dərəcədə azalmasına şərait yaradacaqdır.*

Milli iqtisadiyyatın inkişaf proseslərinin, xüsusilə də onun struktur problemlərinin müasirləşdirilməsi sadə məsələ deyil. İqtisadiyyatın inkişafı prosesində ən səmərəli və məhsuldar mexanizmlərin seçilməsinə əsas diqqət yetirilməlidir. İqtisadi proseslərin qanunauyğun gedişini, dəyər zəncirində istehsal proseslərinin intensivləşməsini və iqtisadi artıma imkan verən fəaliyyətin sürətləndirilməsini təmin etmək vacib əhəmiyyət kəsb edir. İqtisadi sistemin və milli iqtisadiyyatın strukturunun müasirləşdirilməsi problemlərinin həlli üçün ölkədə təşkilatı səviyyədə islahatların aparılması, dövlətin iqtisadi siyasətinin qlobal iqtisadi çağırışlara uyğun tənzimlənməsi və iqtisadi fəallığın tələb olunan səviyyəyə çatdırılması tələb olunur. Əlavə olaraq, iqtisadi sistemin səmərəliliyi ilə bağlı problemlərin müəyyən edilməsinə, beynəlxalq normalara uyöunluğunun yüksək səviyyədə təmin edilməsinə, habelə davamlı həllinə diqqət artırılmalıdır.

Dövlətin iqtisadi siyasətində milli iqtisadiyyatın struktur problemlərinə kifayət qədər xüsusi diqqətlə yanaşılmalı və lazımi strateji qərarlar qəbul edilməlidir. Ölkənin iqtisadi inkişafı və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması məqsədlərinə uyğun olaraq milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsinin təmin edilməsi problemini həll etmək üçün dövlət və ictimai səviyyələrdə fikir və yanaşmaları əlaqələndirmək və tarazlaşdırmaq lazımdır. Milli iqtisadiyyatın strukturunun inkişafı və modernləşdirilməsi problemlərinə yaradıcı və strateji

yanaşma təmin etmək lazımdır. Eyni zamanda, milli iqtisadiyyatın özünü inkişaf xüsusiyyətlərindən istifadə edərək, milli iqtisadiyyatın dayanıqlığının gücləndirilməsi, böhran dövründə iqtisadiyyatın ayrı-ayrı sahələrinin toxunulmazlığının yüksəldilməsi, iqtisadi artımın yeni imkanlarının formalaşması və inkişafı tam şəkildə istifadə edilməlidir. Bunun üçün vacib və gözlənilən məsələlərdən biri də ondan ibarətdir ki, milli iqtisadiyyatın strukturunun müasirləşdirilməsi üçün seçilən model və üsullar səmərəlilik, çeviklik və milli inkişaf xüsusiyyətlərini özündə əks etdirir. İqtisadi inkişafın və iqtisadi artımın məhsuldar mənbələrinin yaradılmasına və bununla bağlı tədbirlərə, makroiqtisadi səviyyədə sektorlararası uyğunsuzluğun aradan qaldırılmasına, ölkə regionlarının inkişafı üçün zəruri dövlət proqramlarının işlənib hazırlanmasına və həyata keçirilməsinə, iqtisadi cəhətdən sağlamlaşdırılmasının həyata keçirilməsinə diqqət yetirilməlidir. Bu istiqamətdə əlverişsiz sahələrin, iqtisadiyyatın rəqabətqabiliyyətli sahələrinin fəaliyyətinin təmin edilməsi, genişləndirilməsi və sürətləndirilməsi, ümumilikdə isə inklüziv iqtisadi inkişafın prioritet istiqamətə çevrilməsi əsas məsələlərdən biridir. Milli iqtisadiyyatın strukturunun müasirləşdirilməsi və onun davamlı inkişafına imkan verən fəaliyyət potensialından səmərəli istifadə problemləri kompleks şəkildə nəzərdən keçirilməli, onların həlli yolları və mexanizmləri müəyyən edilməlidir. İqtisadi inkişafın əsas prinsiplərinin möhkəmləndirilməsinə xüsusi diqqət yetirilməlidir. Ölkədə makroiqtisadi sabitliyin təminatı ola biləcək iqtisadi inkişaf göstəricilərinin meyarları və prinsipləri qorunmalı, iqtisadi təhlükəsizlik məsələləri xüsusi nəzarətdə saxlanılmalıdır. Hər bir ölkənin iqtisadi inkişafının sabitliyini təmin etmək və milli iqtisadiyyatın strukturunu təkmilləşdirmək üçün investisiya amilinin ciddi şəkildə nəzərə alınması və qiymətləndirilməsi strateji səviyyədə nəzərə alınmalıdır. Bunun əvəzinə ölkədə sosial-iqtisadi problemlərin həllinin müasirləşdirilməsi üçün iqtisadi inkişaf potensialının ölçülməsi və qiymətləndirilməsi tədbirləri sistemli şəkildə həyata keçirilməlidir. İqtisadi islahatların həyata keçirilməsi yolu ilə, yuxarıda qeyd edildiyi kimi, ölkə iqtisadiyyatının struktur potensialından istifadə etməklə ölkə əhalisinin həyat səviyyəsinin yüksəldilməsi və eyni zamanda onun rəqabət qabiliyyətinin artırılmasına diqqət artırılmalıdır. Milli iqtisadiyyatın inkişafı və artım mənbələrinin formalaşdırılması problemləri uzunmüddətli perspektivdə əsaslı şəkildə planlaşdırılmalı və planlaşdırılan prioritetlər çərçivəsində mümkün qədər optimal şəkildə proqnozlaşdırılmalıdır (Kolawole, Ojapinva, 2013).

Çox vaxt milli iqtisadiyyatın inklüziv inkişafı ilə bağlı problemlər qabardılır ki, bu da təbiidir, çünki qlobal iqtisadi çağırışlar şəraitində milli iqtisadiyyatın hədəflərini inklüziv inkişafı təmin etmədən modelləşdirmək və proqnozlaşdırmaq mümkün deyil. Digər tərəfdən, dünya təcrübəsində müasir iqtisadi inkişaf tendensiyaları baxımından inklüziv inkişaf kifayət qədər mühüm yanaşmadır və bu reallıqları nəzərə almamaq mümkün deyil. Eyni zamanda, iqtisadi inkişaf prioritetlərinin həyata keçirilməsi milli iqtisadiyyatın dayanıqlığının təmin edilməsi, təşkilati və iqtisadi islahatların tarazlığının təmin edilməsi, dövlət nəzarəti

mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində zəruri addımlarla müşayiət olunmalıdır. Bu baxımdan iqtisadi inkişaf proseslərində yüksək potensiala malik iqtisadi inkişaf mexanizmləri və alətlərinin fəal şəkildə iştirak etməsi təmin edilməlidir.

Müasir dövrdə Azərbaycanın milli iqtisadiyyatının strukturunun müasirləşdirilməsi problemləri daim diqqət mərkəzindədir. Bu istiqamətdə demək olar ki, hər il davamlı tədbirlər həyata keçirilir. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin gücləndirilməsinə, struktur islahatlarının dərinləşdirilməsinə və yeni inkişaf strategiyalarının formalaşdırılmasına diqqət yetirilir. İqtisadiyyatda artan bazar kapitallaşması və maliyyə xidmətləri bazarının tarazlı inkişafı üçün ölkə iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi, makroiqtisadi siyasətin əlaqələndirilməsinin gücləndirilməsi, maliyyə sabitliyi baxımından optimal iqtisadi çərçivənin formalaşdırılması, inflyasiya hədəfinə uyğun olaraq pula tələbatın ödənilməsi və qiymətli kağızların inkişaf səviyyəsinin yüksəldilməsi siyasəti aparılır. Yaxın gələcəkdə əlavə dəyər yaratmaq potensialından maksimum səmərəli istifadə etməklə milli iqtisadiyyatın inkişaf proseslərinin intensivləşməsini proqnozlaşdırmaq mümkündür.

## Nəticə

Yuxarıda qeyd edilənləri ümumiləşdirərək müəyyən nəticələr çıxarmaq mümkündür. Belə ki, əhəmiyyətli təbii ehtiyatlara, xüsusilə neft və qaz ehtiyatlarına malik ölkələrin milli iqtisadiyyatı hasilat sənayesindən asılı olmaq riski ilə də üzləşə bilər. Bu ölkələrin, xüsusən də Azərbaycanın milli iqtisadiyyat strukturunun müasirləşdirilməsində emal sənayesinin inkişafı nəzərə alınmalıdır. Neft-qaz sektoruna irimiqyaslı investisiyaların qoyulması prosesinin növbəti 30-40 il ərzində də davam edəcəyi proqnozlaşdırılır. Ona görə də, neft-qaz sənayesinin emal sektorunun yenidən qurulması məsələsini həll etmək vacib əhəmiyyət kəsb edir. Müasir texnologiyalara əsaslanan neft-kimya kompleksi yaratmaq uzun müddət tələb etsə də, iqtisadiyyatın davamlı inkişafı üçün olduqca vacib amildir. Xüsusilə qeyri-neft sektorunun intensiv inkişafını təmin etmək üçün ölkə iqtisadiyyatımızın əsas aparıcı sahəsi olan neft sənayesinin potensialından səmərəli istifadə olunmalıdır.

Ölkənin neft-qaz sektorunda özəl sektorun iştirakı stimullaşdırılmalı və rəqabət mühitinə yenidən baxılmalıdır. Qlobal iqtisadi çağırışlar kontekstində hər il ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini artırmaq, biznes mühitini yaxşılaşdırmaq, dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində biznesi və sahibkarlığı inkişaf etdirmək və milli iqtisadiyyatın inkişaf modelini konseptuallaşdırmaq lazımdır. Bu istiqamətdə səmərəliliyi və təsirliliyi artırmaq üçün strateji inkişaf və fəaliyyət proqramları qəbul edilməlidir.

Müasirləşmiş rəqabətqabiliyyətli iqtisadi fəaliyyət növlərinin ölkə iqtisadiyyatının strukturuna fəal şəkildə daxil edilməsi, istehsal müəssisələri şəbəkəsinin genişləndirilməsi, idxal edilən malların əvəzetmə fəaliyyətinin təşkili ilə ixrac potensialının artırılması və valyuta mənbələrinin şaxələndirilməsi zəruridir. Ümumilikdə milli iqtisadiyyatın rəqabət qabiliyyətinin, eləcə də qlobal iqtisadi təzyiqlərə davamlılığının gücləndirilməsi, artım mənbələrinin dayanıqlığının təmin edilməsi istiqamətində mühüm tədbirlərin kompleks və sistemli şəkildə həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

## Açıqlama bəyanatı

Müəllif (lər) tərəfindən hər hansı potensial marağın toqquşması ilə bağlı məlumat verilməmişdir .

**Əlaqə**

**E-mail:** nurlan.abdullazade@yahoo.com

## Ədəbiyyat:

Azərbaycan Respublikasında kiçik, orta sahibkarlığın inkişafının dövlət proqramı, 2002-2005-ci illər

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi http://www.stat.gov.az

Deaton Angus. Understanding the Mechanisms of Economic Development. Journal of Economic Perspectives, 2010, vol. 24, no. 3 (Summer), pp. 3–16. Available at: https://www.princeton.edu

Approaches to Exchange Rate Policy., Ed. by: Richard C. Barth and Chorng-Huey Wong. / International Monetary Fund. Washington D.C., 1994.,səh. 293

Babayev T.S. Azərbaycanın xarici ticarət potensialının genişləndirilməsində investisiya amilinin rolu. i.ü.f.d. diss. 2014,

Ç.M.Abbasov, Azərbaycanın dünya iqtisadiyatına inteqrasiyası yolları, Bakı, “Elm” nəşriyyatı, 2005, 252 səh.

Həsənov R.T. İqtisadi inkişaf və makroiqtisadiyyat. Bakı, 2001. -74 s.

Həsənov R.T. Milli iqtisadiyyatın rəqabətliliyi: struktur islahatları və yeni inkişaf paradiqması, Strateji Təhlil, SAM nəşri1-2,2017, s 229-258

Нуреев, Р. М. Основные институциональные модели становления и развития капитализма // Инст. эк. / п|о. ред. А. Олейника. М.: Инфра М, 2005. - С. 350.

Kəlbiyev Y.A.Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri,Bakı, «Elm», 2005

V. Məmmədov, Qloballaşma dövründə dünya iqtisadi Böhranı və yeni rəqabət şəraitində Azərbaycan şirkətlərinin rəqabətqabiliyyətliliyi. Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya. İqtisadiyyat və Beynəlxalq Münasibətlər, III Beynəlxalq Konqresi , Bakı 2010, səh 433

**Məqaləyə istinad** ABDULLAZDƏ Nurlan.,. Milli iqtisadiyyat strukturunun modernləşdirilməsi .Elm və İnnovativ Texnologiyalar Jurnalı.Nömrə 29,2024. s.80-90. DOI: 10.30546/2616-4418.29.2024.80

## SUMMARY

## Modernization of the national economic structure

**Nurlan Abdullazade**
**Azerbaijan State University of Economics, Azerbaijan**

The article deals with the modernization process of the national structure of Azerbaijan's economy and its solutions in modern conditions. The main goal here is to find ways to improve the process of modernization of the structure of the national economy by reviewing the world economic situation. The main direction of the research is the theoretical, methodological, and applied aspects of the creation of components for the technological modernization of the country's national economy. For this purpose, taking into account the global economic situation, the issues of improving the modernization of the structure of the national economy and expanding the activities of the areas of the economy characterized by the creation of competitive added value should be studied more optimally.

In general, the article focuses on the main direction of modernization of economic development. Proposals and recommendations on the problems considered in the article are given. For the non-oil sector, which is the leading sector of the national economy, to develop intensively, the industrial potential of these areas must be used effectively.

***Keywords:*** Modernization, economy, development, stability, optimization, cooperation

## РЕЗЮМЕ

### Модернизация структуры Национальной Экономики

**Нурлан Абдуллазаде**
**Азербайджанский Государственный Экономический Университет, Азербайджан**

Исследование включает процесс модернизации национальной структуры Азербайджана. В статье исследуются проблемы модернизации структуры национальной экономики и их решения в современных условиях. Основная цель здесь – поиск путей совершенствования процесса модернизации структуры национальной экономики путем анализа мировой экономической ситуации. Основным направлением исследования являются теоретические, методологические и прикладные аспекты создания компонентов технологической модернизации национальной экономики страны. Для этого с учетом мировой экономической ситуации следует более оптимально изучить вопросы совершенствования модернизации структуры национальной экономики и расширения деятельности сфер экономики, характеризующихся созданием конкурентоспособной добавленной стоимости.

В целом в статье акцентируется внимание на основных направлениях модернизации экономического развития. Даны предложения и рекомендации по рассмотренным в статье проблемам. Для того чтобы ненефтяной сектор, являющийся основным ведущим сектором национальной экономики, интенсивно развивался, необходимо эффективно использовать промышленный потенциал этих сфер.

***Ключевые слова***: Модернизация, экономика, развитие, стабильность, оптимизация.